# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №05 (75) • 06.02.2012


AzadliqRadiosu.az®

**Moskvada müxalifətin daha bir möhtəşəm mitinqi keçirildi**

səh.2

**Prokurorluq Rafiq Tağının qətli ilə bağlı yeni açıqlama yaydı**

səh.3

**İctimai Palata ölkədə dəyişikliyin yollarını müzakirə etdi**

səh.4

**Azərbaycanlılar Türkiyə və Rusiyadan qovula bilərmi?**

səh.5

**Азербайджан был "за", но Россия и Китай наложили вето...**

səh.7

İlham Əliyev: **«Misirdə baş verənləri Azərbaycanda görməyəcəksiz»**

səh.14

## Maraqlı videolar

- Nəvə Rəsulzadə ilə söhbət
- Hökumətdən xəbərdarlıq: «Küçəyə çıxmayın»
- Keçiddən keçmək problemi

www.AzadliqRadiosu.az

## Vətəndaşın 100 min manatlıq əmanəti bankdan yoxa çıxıb



«2012-ci ilin yanvarında getdim «Zaminbank»a, dedim burda mənim adıma pul var. Bildirdilər ki, pul yoxdur. Pulu çıxarıblar». Nazirlər Kabinetinin sabiq əməkdaşı Çingiz Quliyevin dediyinə görə, banka qoyduğu əmanəti ala bilmir. Niyə? 100 min manat bankdan necə yoxa çıxıb?

səh.9

## Əkrəm Əylisli: "Azərbaycanın minlərlə dərd-sərini görmürlər"



*Ziyalılar Forumunun növbəti toplantısı Rüstəm İbrahimbəyovun evində keçirilib. Forum gənclərin problemlərinə həsr edilib. Rüstəm İbrahimbəyov bildirib ki, forumu keçirmək üçün "Hilton", "Hyatt Regency" hotellərinə və digər yerlərə müraciət etsələr də, müxtəlif bəhanələrlə belə bir tədbirə yer verməkdən boyun qaçırılıb.*

səh.6

## M.Ə.Rəsulzadənin Bakıdan aldığı şifrəli məktubda nə yazılmışdı?



23 iyul 1924-cü il: «... Vətəndə vəziyyət ağırdır: istər millətçiləri, istərsə təmayülçü kommunistləri hər yanda təqib edirlər. Uzun işgəncə, əzabdan və 3 dəfə açlıq aksiyasından sonra 11 adamdan ibarət müsavatçıları daha sonra Murmanska aparmaq üçün Moskvaya sürgün ediblər".

səh.10

### Bizim qış



# Moskvada müxalifətin daha bir möhtəşəm mitinqi keçirildi







*Moskvanın «Bolotnaya» meydanında ədalətli seçki tələbi ilə keçirilən mitinqdə 120 min adam iştirak edib. Bunu təşkilatçılar deyir. Daxili İşlər Nazirliyi isə aksiyaçıların 36 mindən artıq olmadığını deyir. AzadlıqRadiosunun müxbiri isə meydanın tamamilə dolduğunu, bütün aksiyaçıları tuta bilmədiyini xəbər verir.*

Mitinqdə müxalifət liderləri Vladimir Rıjkov, Qriqori Yavlinski, yazıçı Boris Akunin və digər iştirakçıların çıxışları olub. Aksiyaçılar «Putinsiz Rusiya» şüarları səsləndiriblər. Eyni vaxtda şəhərdə hökumətpərəst qüvvələrin mitinqi keçirilib. Daxili İşlər Nazirliyinin məlumatına əsasən, bu mitinqdə 138 min adam iştirak edib. Aksiyaçılar prezidentliyə namizəd, baş nazir Vladimir Putinə dəstək bildiriblər. Martın 4-də Rusiyada prezident seçkisidir.

# Bayraq Meydanında sonuncu bina



*Küləyin səsinin qulaq batırdığı, qardan göz-gözü görməyən, dörd yanı açıq 9 mərtəbəli bu bina Dövlət Bayrağı Meydanında hələ tam sökülməyən sonuncu tikilidir. Burada hələ də 30-a yaxın ailə yaşayır. Dediklərinə görə tez-tez qaz, su, elektrik, telefon da kəsilir. Sahibləri köçən mənzillərin sökülməsi burada yaşayanların, öz dilləri ilə desək, onsuz da qara olan gününü bir az da qaraldıb. Sakinlər evdə də papaqlı-paltolu otururlar. Qar dolmuş blokda addımlamaq, hətta küləyə güc gəlib blokun qapısını belə açmaq müşkülə çevrilib.*

**EVDƏ QARTOPU OYNAMAQ OLAR**

Sakinlərin dediklərinə görə, iki həftədən çoxdur onları liftdən də məhrum ediblər.

Nüşabə Məlikova: "Dünəndən qazımızı kəsiblər, bütün qonşular ayağa qalxandan sonra indi-indi deyirlər ki, qazı verəcəklər. İşığımız da keçmişdi, usta gətirtdik ki, birləşdirsin. Gah suyumuzu vurub partladırlar, gah damı uçururlar. Pis vəziyyətdə yaşayırıq, düz əməlli pulumuzu vermirlər ki, çıxaq gedək. 1500 nədir ki? İstədiyimizi versinlər ki, gedək heç olmasa fərli ev alaq da".

Mətanət Məmmədova:

"Evin içində qarı görürsüz, lap qartopu oynamaq olar. Divarlardan su axıb, nə günə qalıb".

**"BOMJ" KİMİ YAŞAYANLAR...**

Aqil Əliyev 5 ünvanında yaşayan sakinlərin köçürülməsinə ötən ildən başlanıb. Artıq yaxınlıqdakı bir neçə bina tamamilə sökülüb. Həmin ərazidə həm də bu ilin mayında keçiriləcək "Eurovision" mahnı müsabiqəsi üçün arenanın tikintisinə başlanıb. Sakinlər elə bu arenanın qurbanı olduqlarını deyirlər.

Amma ötən il sakinlərə paylanan rəsmi bildiriş vərəqələrində qeyd olunurdu ki, bu ərazidə abadlıq və yaşıllaşdırma işlərinin aparılması ilə əlaqədar yaşayış sahələri köçürülür.

Hökumət mənzillərin hər kvadratmetrinə görə 1500 manat təklif edir. Bu məbləğin bazar qiymətindən qat-qat aşağı olduğunu iddia edən bir qrup sakin təkliflə razılaşmır, çətinliklərə baxmayaraq, hələ də yaşadıqları mənzilləri tərk etmirlər.

Xədicə Güləmirova:

"Köçən qonşuların evlərini uçurdublar, mümkün deyil burda dayanmaq. Bomj kimi yaşayırıq. Belə soyuqda qazı kəsərlər?"

Natalya Bailova:

"Heç bir ölkədə belə şey yoxdur. Nəyə görə biz əziyyət çəkməliyik? Haqqımız olanı bizə vermək istəmirlər. 1500-dən başqa bizə 30 faiz də kompensasiya verməlidirlər. Onu da vermirlər, deyirlər hamısı 1500 manatın içindədir".

Sakinlərin dediklərinə görə, onlara fevralın 5-dək vaxt qoyulub ki, binanı tərk etsinlər. Onlardan biri olan Xalıq Bağırovun dediyinə görə, onları hədələyirlər ki, köçməyəcəkləri halda hər kvadratmetrə görə 1500 manatı da ala bilməyəcəklər: "Bizə hədə-qorxu gəlirlər ki, məcburi köçürəcəyik sizi. Gah 5 gün, gah 10 gün vaxt verirlər. İndi də fevralın 5-nə kimi vaxt qoyublar, deyirlər o vaxtadək kim Forma 1 alsa, pulu veriləcək, almasa fevralın 5-dən sonra o da olmayacaq, ancaq ev verəcəklər".

***Ülkər Akifqızı***

# Əcnəbi jurnalistləri döyənlərə cəza verildi

Yanvarın 31-də Yasamal Rayon Məhkəməsində ABŞ vətəndaşı Amanda Ericksonu və Böyük Britaniya vətəndaşı Celia Daviesi döyməkdə ittiham olunan 4 nəfərin məhkəmə prosesi sona çatıb. Təqsirləndirilənlərdən Nazim Hüseynov 4 il, Adil Tağızadə, Roman Həsənov və Vüsal Qurbanov 2 il azadlıqdan məhrum ediliblər. A.Erickson və C.Davies keçən ilinin iyununda döyülmüşdülər. A.Erickson və C.Davies Azərbaycanda jurnalistlər və vətəndaş cəmiyyəti fəalları üçün treninqlər keçirlər. A.Erickson "Washington Post" və "New York Times" qəzetləri ilə də əməkdaşlıq edir.

# Prokurorluq Rafiq Tağının qətli ilə bağlı yeni açıqlama yaydı

**«İSTİNTAQDA 130-DAN ARTIQ ADAM DİNDİRİLİB»**

*Fevralın 1-də Baş Prokurorluq və Daxili İşlər Nazirliyi yazıçı-publisist Rafiq Tağının qətli ilə bağlı açıqlama yayıblar. Açıqlamada deyilir ki, Rafiq Tağını müalicə edən tibb işçilərinin məsuliyyətsizliyini təsdiqləyən faktlar aşkarlanmayıb: «Məhkəmə-Tibbi Ekspertizasının nəticələri göstərib ki, ölümün səbəbi zərərçəkənin bədəninə bıçaqla yetirilən xəsarətlər olmuşdur».*

Məlumatda qeyd edilir ki, Rafiq Tağının hərəkət marşrutunu qeydə alan 43 videokameranın görüntülərinin təhlili aparılıb. Müəyyən edilib ki, onlardan yalnız iki obyektə məxsus 4 videokamera işləməyib. Məlumatda həmçinin bildirilir ki, cinayət işi üzrə zərərçəkmiş və şahid qismində 130-dan artıq şəxs dindirilib. 10-a yaxın kompleks ekspertiza təyin olunaraq rəylər əldə edilib.

**RAFİQ TAĞININ QOHUMLARI NARAZIDIR**

Noyabrın 19-u axşam saatlarında bıçaqlanan və 4 gün sonra xəstəxanada ölən Rafiq Tağının yaxınları isə hüquq-mühafizə orqanlarının bu açıqlaması ilə razılaşmırlar. Mərhumun qardaşı Rafael Tağıyev AzadlıqRadiosuna deyib ki, onlar yazıçının ölümündə həkimləri təqsirli sayırlar. Məhkəmə-Tibbi Ekspertizasının nəticəsini şübhə altına alan Rafael Tağıyev deyir ki, onlar öz iddialarında təkid edirlər: «Həkimlər səhlənkar olublar, ona görə də məsuliyyət daşımalıdırlar».

**«XƏSTƏXANADA CİDDİ PROBLEMLƏR OLUB»**

*Rafiq Tağının qətlini araşdıran İctimai Təhqiqat Qrupunun təmsilçisi, «Turan» İnformasiya Agentliyinin direktoru Mehman Əliyev deyir ki, rəsmi açıqlama onların gözləntisini əks etdirməyib:*



Mehman Əliyev

*«Hesab edirəm ki, xəstəxanada ciddi problemlər olub. Çox ciddi araşdırılmalıdır ki, orda nə baş verib? Mənim şəxsi qənaətim belədir ki, Rafiq Tağı adi palataya köçürülməməli idi, ona qida verilməməli idi, zəruri preparatlarla təmin olunmalı idi. Hesab edirəm ki, müalicə düzgün aparılmayıb».*

Mehman Əliyev deyir ki, onlarda olan ilkin məlumata görə, hadisə yerində olan kameraların əksəriyyəti işləməyib.

**JURNALİSTLƏRƏ QARŞI OLAN CİNAYƏTLƏRİN ÇOXUNUN ÜSTÜ AÇILMIR**

Mehman Əliyev onu da əlavə edir ki, jurnalistlərə qarşı baş verən cinayət hadisələrinin üstü əksər hallarda açılmır. Hərçənd o ümid edir ki, Rafiq Tağının qətlinin üstünün açılması həmkarlarınkının taleyinə bənzəməyəcək.

*Tağıyevlər ailəsinin vəkili Elçin Sadıqov* isə hesab edir ki, hüquq-mühafizə orqanlarının açıqlamasında həqiqətə uyğun olmayan detallar var. Rəsmi məlumatda vəkilin vəsatətlərinin araşdırılıb qiymət verilməsi deyilsə də, o, bunun şahidi olmayıb.

**«KAMERA LENTİNDƏ ŞÜBHƏLİ ŞƏXS GÖRMÜŞÜK»**



Elçin Sadıqov

Elçin Sadıqov bildirir ki, istintaq qrupu zərərçəkənləri istintaqdan kənar tutur və aparılan əməliyyatlar barədə məlumat vermir.

Kameralara toxunan vəkil deyir ki, onlar istintaqdan əvvəl bu kameralara baxış keçiriblər və birində şübhəli şəxs müşahidə ediblər. Hadisə baş verən vaxtı orda olan avtomobillərin nömrələri də açıq-aydın görünür: «Yəqin ki, bu lentlər istintaqdadır. Elə bilirəm ki, cinayətkarı müəyyən etmək istintaq üçün elə də çətin olmaz».

***Səadət Akifqızı***



Arxiv foto

## İlham Əliyev Hillari Klintonla görüşüb

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 4-də Amerika Birləşmiş Ştatlarının dövlət katibi Hillari Klintonla görüşüb. Görüş Münhendə olub. Bu haqda məlumatı AzərTAc yayıb. Məlumatda deyilir ki, İlham Əliyevlə Hillari Klinton ikitərəfli münasibətlərin inkişafından danışıblar. Eyni zamanda Azərbaycanın antiterror koalisiyasının tərkibində Əfqanıstandakı sülhyaratma əməliyyatlarında iştirakı yüksək qiymətləndirilib.*

Görüşdə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparıldığı da xəbər verilir. İlham Əliyev Münhen Təhlükəsizlik Konfransında iştirak edir. İlham Əliyev şənbə günü Serbiyanın xarici işlər naziri Vuk Yeremiç ilə də görüşüb.

## AzadliqRadiosu.az saytında maraqlı videolar

1. **Müxalifət M.Ə.Rəsulzadənin xatirəsini yad edir**
2. **Rəsulzadə flashmobu**
3. **Nəvə Rəsulzadə ilə söhbət**
4. Hökumətdən xəbərdarlıq: **«Küçəyə çıxmayın»**
5. **Bakıda qar-çovğun görüntüləri**
6. **Misirdə azarkeşlər arasında toqquşma**
7. **Keçiddən keçmək problemi**

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



Hüseynbala Səlimov: **Türklər nədən uduzur?**

# İctimai Palata Azərbaycanda dəyişikliyin yollarını müzakirə etdi


İsa Qəmbər

*«Dünyanın dəyişən vaxtında Azərbaycanı Əliyev rejiminin təmsil etməsi ölkə üçün ciddi təhlükədir». Bu fikirləri fevralın 4-də İctimai Palatanın növbəti sessiyasında Müsavat başqanı İsa Qəmbər deyib: «Təbii ki, 2013-cü il prezident seçkiləri də yaddan çıxarılmamalıdır. Amma biz öz fəaliyyətimizi seçkidən-seçkiyə müəyyənləşdirməməliyik. Hesab edirəm ki, 2012-ci ildə də ölkədə köklü dəyişikliklərə nail olmaq olar. İndiki şərtlər də buna imkan verir. Beynəlxalq aləmdə Əliyev rejiminin təklənməsi prosesi gedir. Fəaliyyətimizdə bu gerçəkliyi də nəzərə almalıyıq».*

**«BİZ QANSIZ-QADASIZ VƏ TƏDRİCİ DƏYİŞİKLİK MODELİNİ SEÇMƏLİYİK»**

AXCP sədri Əli Kərimli isə çıxışında deyib ki, 2012-ci ildə hədəf yeni xalq hərəkatı olmalıdır. «Bu zaman kütləvi


Əli Kərimli

hərəkatlar gündəmə gəlir. Biz həmin aksiyalara hazırlaşmalı, fəaliyyətimizi əsasən bu istiqamətə yönəltməliyik. Biz hər şey etməliyik ki, apardığımız proses kütləvi olsun, xalq kənarda qalmasın. Biz imkan verməməliyik ki, hakimiyyət növbəti repressiyalara başlasın. Biz dəyişiklik kursu kimi ərəb ölkələrində olan modeli deyil, MDB məkanında, Rusiyada olan modeli seçməliyik. Qansız-qadasız və tədrici dəyişiklik modelini. Biz dinc, qansız və demokratik mübarizə tərəfdarıyıq», - deyə Əli Kərimli bildirib.

**«MİNLƏRLƏ İNSAN SİYASİ DUSTAQLARIN ŞƏKİLLƏRİ OLAN KÖYNƏKLƏR GEYİNƏCƏK»**

Əli Kərimli deyib ki, İP parlament və prezident seçkilərinin vaxtından əvvəl keçirilməsini təmin etməlidir. O, həmçinin «Eurovision» mahnı müsabiqəsinin də Azərbaycan üçün bir fürsət olduğunu xatırladıb: «Bilsinlər ki, ya bizim dostlarımız azad olmalıdır, ya da «Eurovision» üçün ölkəmizə gələn minlərlə jurnalist yalnız siyasi məhbuslardan və korrupsiyadan danışacaq».

**«MİLLİ ETİMAD HÖKUMƏTİ YARADILSIN»**

Sabiq baş nazir Pənah Hüseyn «2012-ci ildə İctimai Palatanın fəaliyyətinin əsas məqsəd, hədəf və istiqamətləri» adlı sənədi təqdim etdi. Ölkədə və dünyada baş verən bir sıra məsələlərə toxunan Pənah Hüseyn təklif edib ki, Milli Etimad Hökuməti yaradılsın. O, həmçinin İranla bağlı vəziyyətə də toxunub. Deyib ki, «İrana hərbi müdaxilənin yolverilməzliyi İP-in mövqeyində öz əksini tapsın».

**«ELƏ BİR SİTUASİYA YARATMALIYIQ Kİ...»**

AXCP sədrinin müavini Fuad Qəhrəmanlı bildirib ki, İP regionlardakı vəziyyətə diqqət yetirməli, insanların problemləri ilə maraqlanmalı və xalqı özünə tərəf çəkməlidir. Fuad Qəhrəmanlı deyib ki, bununla da İP ölkədə seçki keçirilməsi təşəbbüsünü öz əlinə almalıdır: «Seçkini kim keçirəcəksə, hakimiyyəti də o udacaq... Elə bir situasiya yaratmalıyıq ki, növbəti seçkini xalqın nəzarəti altında biz keçirək».

**«HEÇ OLMASA, QIRĞIZ QIZI ROZA ATUNBAYEVA KİMİ «KİŞİ» QADIN TAPAQ»**

Müsavat Məclisinin üzvü Sabir Məmmədli parlament respublikası uğrunda koalisiya yaradılmasını təklif edib. Sabir Məmmədli deyib ki, İP Ziyalılar Forumu və Rəsul Quliyevin Müqavimət Hərəkatı ilə saziş bağlamalı və parlament respublikası uğrunda koalisiyada birləşməlidir: «Bu proses prezident seçkilərinə doğru uzansa, biz təklif edirik ki, qırğız modelinə üstünlük verilsin. Heç olmasa, qırğız qızı Roza Atunbayeva kimi bir dənə «kişi» qadın tapaq. O, seçkiləri keçirsin və kənara çəkilsin».

**KÜTLƏVİ AKSİYALARA HAZIRLIQ GÜCLƏNDİRİLMƏLİDİR...**

Sessiyada İctimai Palatanın 2012-ci ildə fəaliyyət istiqamətləri ilə bağlı sənəd qəbul edilib. Bundan başqa, qərara alınıb ki, növbəti aylarda keçirilməsi nəzərdə tutulan kütləvi aksiyalarla bağlı iş gücləndirilməlidir.

***Maarif Çingizoğlu***

# Oqtay Əsədov AŞPA-nın siyasətini tənqid etdi

*«Siyasi məhbus anlayışı haqda AŞPA-nın hüquqi sənədi olmadan və meyarlar tam müəyyənləşdirilmədən hər hansı bir ölkədə bu məsələ ilə əlaqədar araşdırmaların aparılması əsassızdır». Bunu fevralın 2-də Milli Məclisin sədri Oqtay Əsədov AŞPA Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Pedro Agramunt və Joseph Grech'lə görüşü zamanı deyib. Spiker bildirib ki, «Rusiya, Ukrayna, Belarus kimi ölkələrdə mövcud «siyasi məhbus» problemi AŞPA-nın monitorinq proseduru çərçivəsində araşdırılır. Belə olan halda Azərbaycana münasibətdə bu məsələnin hüquqi işlər və insan haqları komitəsinin mandatına verilməsi qurumun ölkəmizə münasibətdə fərqli siyasət yeritdiyindən xəbər verir».*

O.Əsədov hesab edir ki, bu məsələnin araşdırılmasının monitorinq proseduruna qaytarılması ədalətli olardı: «Biz ölkələrə münasibətdə ikili standartların tətbiq olunmasını və mövcud olmayan problemdən təzyiq kimi istifadə cəhdlərini qəbul edə bilmərik».



Oqtay Əsədov

Məlumatı Milli Məclisin mətbuat xidməti yayıb.

***İlqar Rəsul***

# Azərbaycanlılar Türkiyə və Rusiyadan qovula bilərmi?

## Türkiyə və Rusiya miqrasiya siyasətində dəyişiklik edir



**Fevralın 1-dən Türkiyədə miqrasiya qanunvericiliyinə edilən dəyişikliklər qüvvəyə mindi. Dəyişikliklərə görə, iş vizası ilə Türkiyəyə gedənlər orada 3 aydan artıq qala bilməyəcəklər. Viza müddəti tükəndikdən sonra isə ən azı 3 aydan sonra yeni viza almaq mümkün olacaq. Yeni qaydalara görə, viza müddətini aşanlar böyük məbləğdə cərimələnəcəklər.**

Artıq fevralın 1-dən Türkiyə sərhəd xidmətlərində bununla bağlı xəbərdarlıqlar da asılıb. Türkiyədə yaşayan azərbaycanlı miqrantlar isə qanunvericiliyə edilən dəyişikliklərdən narahatdırlar. İş üçün Türkiyəyə gedən azərbaycanlılara bir ay müddətinə iş vizaları verilirdi. Bir ayın tamamında onlar sərhədi keçərək, yeni viza ilə ölkəyə qayıda bilirdilər.

Uzunmüddətli viza ilə Türkiyədə çalışan iş adamı Nərəddin Zülfiqarlı yeni qaydaların ona şəxsən problem yaratmayacağını düşünür. O bununla belə hesab edir ki, bu ümumilikdə Azərbaycandan gələn çoxsaylı miqrantlara mənfi təsir edəcək:

**«ÇOX PİS HALDI...»**

«Mən iş adamı olduğum üçün daimi vizam var. Amma normal gəlib-gedən vətəndaşlara çox pis təsiri olacaq. Çox pis haldı... Niyə belə ediblər? Bəzi azərbaycanlılar gəlib burada iş görürdülər, qeyri-qanuni olsa da, gəlib burada çalışırdılar. Onlar müvəqqəti viza ilə ayda bir dəfə ölkəyə giriş-çıxış edib çalışırdılar».

**«180 GÜN ƏRZİNDƏ 90 GÜN QALMAQ HAQQI VAR»**

*Türkiyənin Naxçıvan konsulluğunun əməkdaşı Dursun Demir də deyir ki, yeni qaydalar Türkiyəyə müvəqqəti - bir aylıq vizalarla gedənlərə şamil olunur. Oturma və çalışma izni olanlara isə yeni qaydaların heç bir təsiri olmayacaq:* «3 aydan sonra yeni viza ala biləcək. Əlbəttə, əgər oturma və çalışma izni olanlara bu qaydalar şamil olunmayacaq. Türkiyədə verilən izin müddəti ilə heç bir problemsiz qalmaq mümkündür».

Türkiyənin ardınca isə bu günlərdə Rusiyanın baş naziri Vladimir Putin miqrasiya qanunvericiliyinin dəyişdirilməsini təklif edib. O, deyib ki, ölkənin əmək və miqrasiya qanunvericiliyini pozanların 10 il müddətinə ölkəyə girişi qadağan olunmalıdır. Putinin təkliflərinə görə, miqrantlar rus dilini bilməklə yanaşı, rus ədəbiyyatı və tarixini də minimum səviyyədə bilməli, bunu imtahan qaydasında sübuta yetirməlidirlər.

11 ildir Moskvada yaşayan Elşən Həsənov taksi sürücüsü kimi çalışır. O, baş nazirin təklifinin təsdiq olunacağına inanmır:

**«BU, ÇOX QEYRİ-REAL, GÜLMƏLİ BİR TƏKLİFDİR»**

« Maşallah, azərbaycanlıların az qala hamısı buradadır. Amma belə lap yaxından tanıdıqlarımın heç 10 faizi bu imtahanlardan keçə bilməz. Belə götürəndə onlar heç Azərbaycan tarixini yaxşı bilmirlər, o da qala Rusiyanın tarixinə. Yəni bu, çox qeyri-real, gülməli bir təklifdir».

**FƏRQLİ MÖVQELƏR**

«Yeni miqrasiya siyasəti MDB məkanını Rusiyanın təsir dairəsinə salmağa yönəlib». Bunu AzadlıqRadiosunun «İşdən sonra» proqramında Vladimir Putinin miqrasiya qanununu sərtləşdirmək barədə fikirlərini şərh edən politoloq Elşən Manafov deyib.

*Elşən Manafovun fikrincə, Rusiya Avrasiya Birliyi layihəsini həyata keçirmək üçün belə bir addım atmaq istəyir:* «Bu qanun qüvvəyə minəcəyi təqdirdə testdən keçib miqrant statusu ala biləcək şəxslərin sayı yetərincə azalacaq. Bu siyasətin özü birmənalı şəkildə MDB məkanını Rusiyanın təsir dairəsinə salmaq və Avrasiya layihəsinə yeni çalar verməkdən ötrü atılan addımdır».

Miqrantlara Hüquqi Yardım Mərkəzinin rəhbəri Əlövsət Əliyev isə miqrasiya haqqında qanunun sərtləşəcəyinə inanmır: «Rusiyada demoqrafik artım o səviyyədə deyil ki, bu ölkə sərt miqrasiya siyasətini tətbiq edə bilsin. Sərt miqrasiya qanunlarının tətbiq edilməsi, sadəcə, seçkiqabağı bəyanatlardır. Bunun həyata keçməsi və reallaşması mümkün deyil...».



Əlövsət Əliyev

*Ümumrusiya Azərbaycanlıları Konqresinin Moskva şəhər təşkilatının rəhbəri İlqar Hacıyev isə deyir ki, bu qanun qəbul olunsa belə, bunun Rusiyadakı azərbaycanlılar üçün heç bir təhlükəsi yoxdur:* «Çünki Azərbaycanda hətta rayon məktəblərində rus dili öyrənilir. Azərbaycandan gələn miqrantlar rus dilini bilirlər. Bu baxımdan, bu yeni siyasət Rusiyadakı azərbaycanlı miqrantlara təsir etməyəcək».

**Bu mövzuda müzakirəni AzadliqRadiosu.az saytında dinləmək olar.**

***Nüşabə Fətullayeva***





Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:

SMS: (+994 50 744 10 17) Telefon: 436 – 77 - 41

Elektron ünvan: efir@azadliqradiosu.az

# Əkrəm Əylisli: "Azərbaycanın minlərlə dərdini-sərini görmürlər"

## *Ziyalı Forumu gənclərin problemlərini müzakirə etdi*


Əkrəm Əylisli

### NİYƏ GƏNCLƏR?

*Ziyalılar Forumunun gənclərlə bağlı toplantısı Rüstəm İbrahimbəyovun evində keçirildi. AzadlıqRadiosu ilə söhbətində Rüstəm İbrahimbəyov bildirdi ki, forumu keçirmək üçün "Hilton", "Hyatt Regency" hotellərinə və digər yerlərə müraciət etsələr də, müxtəlif bəhanələrlə belə bir tədbirə yer verməkdən boyun qaçırılıb. Ona görə tədbiri burada keçirmək qərara alınıb.*

*Forumu giriş sözü ilə professor Cəmil Həsənli açıb:* «Niyə gənclərlə bağlı müzakirələr keçirmək istədik? Gənclər təhsillə, sosial həyatla, bu günlə bağlıdır. Onların iş, sosial problemlərini müzakirə etməyə qərar verdik».

### «ƏN BÖYÜK RESURS NEFT YOX, GƏNCLƏRDİR»


Rüstəm İbrahimbəyov

*Ziyalılar Forumunda Rafiq Əliyevin çıxışından bəzi məqamlar:* «Gənclik sabahdır. Əsas gəncliyə müraciət edirəm. Ən böyük gəlir sizsiniz. Gənclik millətin ən böyük resursudur. Ən böyük resurs neft deyil! Gəncliyi sabah üçün qorumaq lazımdır. Bizdən fərqli olaraq gənclik gərək bədbin olmasın. Elə fikirləşməyin ki, biz məsuliyyəti sizin çiyinlərinizə atırıq. Bizim gücümüz ona çatdı ki, müstəqillik qazandıq. Amma parçalanmış müstəqillik. ...Biz arzu edək ki, gənclik yanlışlığa yol verməsin».

*Yazıçı Rüstəm İbrahimbəyov isə qısa çıxış edib:* «Gənclərin problemi uşaqlarımızın problemidir. Bizdə uşaq anadan olanda hökumət 75 manat pul verir. Rusiyada isə bizim pulla 400 manat. Amma bu rəqəm ərəb ölkələrində qat-qat çoxdur.

Bu uşaq nə olacaq? Necə böyüyəcək? Gənc yaşında artıq qoca olacaq. Elə əzablar görəcək ki, kişiliyini də itirəcək. Rüşvətxor olacaq. Bax, bundan danışaq...».

### ƏKRƏM ƏYLİSLİ BƏXTİYAR HACIYEVİN BURAXILMASINI İSTƏDİ

«Bəxtiyar Hacıyev azadlığa buraxılsın». *Yazıçı Əkrəm Əylisli Ziyalılar Forumunda çıxışının sonunda belə deyib. O şəxsən öz adından və Forum adından prezidentdən bunu xahiş edib:* «Mən Bəxtiyarın yazılarını izləyirəm. Görürəm ki, çox ağıllı gəncdir, savadlıdır. Perspektivi var. Belə gəncin həbsdə saxlanması yolverilməzdir. Bir daha öz adımdan və forum adından Azərbaycan prezidentinə müraciət edirəm ki, Bəxtiyar Hacıyevin azadlığa buraxılmasına yardımçı olsun».

*Əkrəm Əylisli çıxışında ölkə gəncliyinin problemlərinə də toxunub. O, hakimiyyətin siyasi sədaqət məsələsində tələbkarlığını yanlış saydığını bildirib:* «Gənclərə münasibətdə siyasi sədaqət tələb edəndə cəmiyyət parçalanır. Bu, dövlətin özünə də, dövlətçiliyə də zərbədir. Siyasi mənsubiyyətə görə mövqe qazandırmaq, şərait yaratmaq indiki vaxtda absurddur. Əvvəl olsa deyərdik ki, hökumət zəifdir, insanların meydana tökülməsindən dövləti qorumaq lazımdır. İndisə bu, ikitirəlik yaradacaq, cəmiyyəti parçalayacaq».

*Əkrəm Əylisli daha sonra Ziyalılar Forumu ilə bağlı səslənən fikirləri də şərh edib:*

«Bəzi söz-söhbətlər var ki, guya biz narazıyıq, cəmiyyətdəki inkişafı görmək istəmirik. Bunlar yanlış və mənasız söhbətdir. Burda oturanların çoxu Azərbaycanın dinamik inkişafına şübhə etmir. Amma dinamik inkişafı qədər harmonik inkişafı getmir. Bu, adamı yandırır. Böyük binalar tikilir, abadlıq gedir. Amma bunun fonunda Azərbaycanın minlərlə dərdini-sərini görmürlər. 20 ildən sonra Azərbaycanda yazı oxuyanlar azala bilər. Sovet hökumətinin verdiyi ən böyük töhfə – ümumi savadlanma zəifləyir. 9-cu sinif şagirdi görmüşəm ki, oxuya bilmir. Eşitdiyimə görə, babalı deyənlərin boynuna, idman kompleksləri ki tikilir, onların bir qismini şadlıq evləri kimi istifadə edirlər. Bu, acınacaqlı məsələdir. Bu qədər problemlər ola-ola bərbəzək bizi ağrıdır və bədbinlik yaradır».

Cəmil Həsənli deyib: «Bu gün Azərbaycanın kredit bazarındakı faizlər ancaq bir işə yarayır. Bu faizlə ancaq narkotik işiylə məşğul olmaq mümkündür».

### XARİCİ UNİVERSİTETLƏRİN SEÇİMİ DƏ SİYASİLƏŞİB

*İqtisadi Tədqiqatlar Mərkəzinin rəhbəri Qubad İbadoğlu xaricdə oxuyanların problemlərinə toxunub. O, diqqəti xaricdə təhsil alanların ixtisas seçiminə çəkib. Məsələn, 150 nəfər tibbə göndərilib:* «İqtisadiyyat və humanitar sahələrdə oxuyanların sayını isə dövlət məqsədli şəkildə azaldıb. Tələbələrin oxumağa göndərildiyi ölkələrin seçimləri də siyasiləşib. İlk beşlikdə Böyük Britaniya, Türkiyə və başqa ölkələr təmsil olunsa da, ən yaxşı universitetlərin cəmləşdiyi ABŞ ilk onluqda da deyil. Bu ölkədə dövlət xəttiylə 31 nəfər təhsil alır. Dünyanın 10 aparıcı universitetindən 7-si ABŞ-dadır. Hətta Çin, Malayziya tələbələrini ABŞ-a göndərirsə, biz gənclərimizi ABŞ-a yox, Çinə, Malayziyaya göndəririk».

**Forumun gedişini tam izləmək üçün AzadliqRadiosu.az saytında videolara baxın.**

***Şahnaz Bəylərqızı***




**Dəyərli oxucular!** AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını **AzadliqRadiosu.az** saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.

# Вероятен ли ирано-израильский конфликт?



**Действительно ли власти Израиля, как об этом сообщает американская пресса, готовы нанести удар по иранским ядерным объектам уже в ближайшие месяцы? По просьбе Радио Свобода ситуацию анализирует профессор Университета Бар-Илан в Иерусалиме, политолог Зеев Ханин:**

– Никакой специальной реакции на заявление Панетты в Израиле не было. В кругах, близких к канцелярии премьер-министра, к МИД и Минобороны, говорят, как и раньше, о том, что Израиль предпочел бы мирное, хотя и силовое, разрешение конфликта. Под силовым подразумевается введение намного более ощутимых международных санкций против Ирана чем те, которые существуют сегодня. Сейчас существенную часть этих санкций торпедируют, прежде всего, представители Пекина и Москвы. Если удастся все же согласовать и принять некую консенсусную резолюцию, предусматривающую пакет действий, который заставил бы Иран отказаться от своей ядерной программы, то Израиль, разумеется, предпочел бы подобное развитие событий. Однако пока этого не происходит и на протяжении последних месяцев израильские власти неоднократно заявляли, что по-прежнему не исключают военного решении проблемы.

Что же касается заявления Панетты… По некоторым нюансам, если читать между строк, видно: Вашингтон усиливает давление на Иерусалим, добиваясь от него более четкого декларирования, что военная атака, если решение о ней будет принято, не будет предпринята без согласования с США. Судя по всему, подобное соглашение если и не достигнуто окончательно, то уже вырисовывается.

– Существуют ли в Израиле внутриполитические разногласия по вопросу о возможности нанесения удара по Ирану?

– В Израиле (по крайней мере, в истеблишменте – внешнеполитическом, дипломатическом, военном, информационном) долгое время существовали две фракции: так называемых ирано-оптимистов и ирано-пессимистов.

Ирано-оптимисты не исключали, что с Ираном можно договориться. Кроме того, полагали они, ничего страшного, если Иран в результате получения доступа к ядерным технологиям станет обладателем ядерного заряда: воспользоваться-то им иранцы не смогут, не имея соответствующих средств доставки. Более того, если средства доставки у иранцев появятся, говорили ирано-оптимисты, то, может быть, получив это все, они наконец успокоятся и можно будет выстроить систему, похожую на советско-американские отношения времен "холодной" войны. Тогда США и Советский Союз друг друга сдерживали в мировом масштабе, а теперь США со своими союзниками и Иран будут друг друга сдерживать на Ближнем Востоке…

Впрочем, сегодня ирано-оптимистов в израильском истеблишменте практически не осталось, в нем доминируют ирано-пессимисты. Ирано-пессимисты исходят из того, что Иран, во-первых, делает все, чтобы получить ядерное оружие, а во-вторых - что если у Тегерана это оружие появится, он найдет способ им воспользоваться. Поэтому в целом можно говорить, что фактор силовых действий рассматривается в Израиле как приоритетный.

***Андрей Шароградский***

# Азербайджан был "за", но Россия и Китай наложили вето...

Россия и Китай наложили вето на резолюцию Совета Безопасности ООН по Сирии. В документе содержался призыв к сирийскому президенту Башару Асаду уйти в отставку. Остальные 13 членов Совета, включая Азербайджан и постоянных членов - США, Францию и Великобританию - проголосовали за резолюцию. Британская миссия при ООН назвала вето "позорным".

Ранее в субботу госсекретарь США Хиллари Клинтон заявила на Конференции по безопасности в Мюнхене о невозможности конструктивного сотрудничества с Россией в подготовке проекта резолюции ООН по Сирии. Перед голосованием в Совете Безопасности - также находящийся в Мюнхене министр иностранных дел России Сергей Лавров заявил, что консенсус по Сирии возможен, если члены Совета проявят конструктивный подход и одобрят российские поправки к документу.

Президент США Барак Обама заявил, что Совет Безопасности должен выступить против "продолжающейся жестокости" режима Башара Асада, а сам Асад должен "уйти в сторону, чтобы открыть дорогу демократической смене власти".

# В Баку 46 травмированных от падения на льду

За последние сутки на Бакинскую городскую станцию скорой и неотложной медицинской помощи обратились 1 500 человек. Из них 136 - госпитализированы.

Это сообщил главный врач станции Мурсал Гамидов, передает АПА. По его словам, в связи с гололедом 46 человек получили различные травмы. Из них 30 помещены в больницу. В целом, за вчерашний день различные травмы получили 74 человека, включая пострадавших в результате дорожно-транспортных происшествий и получивших бытовые травмы.

# AŞPA nümayəndələri Azərbaycandakı demokratiyanı necə gördülər?


Pedro Agramunt və Joseph Grech

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçiləri Pedro Agramunt və Joseph Grech Bakıda mətbuat konfransı keçiriblər.**

AzadlıqRadiosunun sualı:

*- Azərbaycan rəsmiləri iddia edirlər ki, 2 apreldə həbs olunanlar siyasi motivlərlə deyil, qanunu pozduqlarına görə həbs olunublar. Belə yanaşmaya Sizin münasibətiniz necədir?*

Pedro Agramunt:

- Bizim münasibətimiz əhəmiyyətli deyil. Biz hakimiyyət nümayəndələrindən də, həbs olunanlardan da onların münasibətini öyrəndik. Bizə elə gəlir ki, bu, xüsusi bir vəziyyətdir və çox böyük ümidlərmiz var ki, məhbuslar tezliklə azad olunacaqlar... Biz aydın şəkildə fikrimizi ifadə etdik ki, nümayiş vaxtı həbs olunanlar azad olunacaqlar və buna güclü ümidimiz var... Mənim ölkəmdə kimsə nümayişə gedib nəyisə qırırsa, nəyisə dağıdırsa - bu, siyasi məsələ deyil, kriminal məsələdir. Amma istərdik ki, bu məsələdə daha çox açıqlıq olsun.

**EVLƏRİN SÖKÜLMƏSİ, QARABAĞ VƏ DİGƏR MƏSƏLƏLƏRLƏ BAĞLI DEYİLƏNLƏR**

Bakıdakı evlərin sökülməsi ilə Pedro Agramunt dedi ki, biz ölkə rəhbərliyini daha çox şəffaflığa və kompensasiyaların daha ədalətli ödənilməsinə çağırmışıq. Rəhbərliklə müzakirələrdə 2 apreldə həbs olunan 16 nəfərin məsələsini qaldırdıq və ümudimizi ifadə etdik, onlar buraxılacaqlar. Qarabağ münaqişəsi əslində "donmuş münaqişə" deyil. Sərhəd zonasında hər il insanlar həlak olur və bu bizi narahat edir, başa düşürük ki, Azərbaycan müharibə şəraitindədir.

Həmməruzəçilər yanvarın 31-dən Bakıdadırlar. Onlar Azərbaycan rəsmiləri, müxalifət və ictimaiyyət nümayəndələri ilə görüşüblər. Məqsəd Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin icrası, demokratik təsisatların və vətəndaş cəmiyyəti institutlarının vəziyyəti ilə tanış olmaqdır.

# YAP-ın 5 milyon manatı

**Fevralın 2-də hakim Yeni Azərbaycan Partiyası İdarə Heyətinin iclasında təşkilatın 2011-ci ildə gəlirləri və xərcləri barədə məlumat verilib. Partiyanın İdarə Heyətindən bildiriblər ki, 2011-ci ildə üzvlük haqlarından partiya büdcəsinə 4 milyon 711 min 974 manat daxil olub. YAP-ın xərcləri isə keçən il bu şəkildə göstərilir:**

• Əməkhaqlarının ödənilməsinə - 2 milyon 59 min manat,

• Müxtəlif xarakterli partiya tədbirlərinin maliyyələşdirilməsinə- 687 min manat,

• Ezamiyyət xərclərinə - 196 min manat,

• Nəqliyyat vasitələri və inventarların alınmasına - 326 min manat,

• Cari təmir işlərinə - 170 min manat,

• Təsərrüfat xərclərinə - 178 min manat,

• Çap işlərinə - 61 min manat,

• Kommunal, icarə haqqı, rabitə xərcləri, bank xidməti və sair istiqamətlərə - 50 min manat.

2012-ci il yanvar ayının 1-nə olan məlumata görə, Yeni Azərbaycan Partiyası üzvlərinin sayı 556 min nəfərdən yuxarı olub. 2011-ci ildə YAP sıralarına 34 mindən çox yeni üzv qəbul edilib ki, onların da 60 faizə qədəri gəncdir.

*1993-cü ildən hakimiyyət başında olan YAP-ın gəlirləri və xərcləri haqqında məlumata fikirlərini forumda göndər, müzakirələrə qoşul.*



## Sarkozi:
# "Konstitusiya Məhkəməsi rədd etsə, yeni soyqırımı qanunu göndərəcəm"

**Əgər Fransada Konstitusiya Məhkəməsi "Soyqırımı inkar qanunu"nu rədd etsə, prezident Nikola Sarkozi dərhal parlamentə bu məzmunda yeni qanun layihəsi göndərəcək.**

Bu barədə AFP agentliyi fevralın 1-də axşam ölkənin iki nazirinə istinadla məlumat yayıb. Başqa bir nazir agentliyə deyib ki, Sarkozi onun kabinetində bu qanuna qarşı olanları da tənqid edərək onlara "burnunuzun ucundan uzağı görmürsüz" deyib.

N.Sarkozi əlavə edib ki, Konstitusiya Məhkəməsinin bu qanunu rədd etməsi Holokostu da danmağa görə cəza nəzərdə tutan qanunu da sual altına salır.

Yanvarın 24-də Fransa senatının qəbul etdiyi qanuna görə, bu ölkədə soyqırımı inkar etmək cinayət sayılır və buna görə 45 min avro cərimə və bir il həbs cəzası nəzərdə tutulur. Bundan sonra qanunun əleyhinə olanlar Konstitusiya Məhkəməsinə müraciət edərək sənədin ölkənin əsas qanununa uyğun olub-olmamasını araşdırmağı xahiş ediblər. Bir ay ərzində Konstitusiya Məhkəməsi də öz rəyini açıqlamalıdır.

Fransa Osmanlı İmperiyası dövründə Türkiyə ərazisində ermənilərə qarşı "soyqırımı" törədildiyini qəbul edib. İndi soyqırımı inkar qanunu qüvvəyə minərsə, Fransa ərazisində "ermənilərə soyqırımı olmayıb" deyənləri də cəza gözləyir. Buna görə Ankara ilə Paris arasında gərginlik artıb.

Bakıda Fransaya etirazlar səslənir. Ölkənin Xarici İşlər Nazirliyi artıq Fransa senatının qəbul etdiyi həmin qanunu pisləyib.

# Vətəndaşın 100 min manatlıq əmanəti bankdan necə yoxa çıxıb?




Nazirlər Kabinetinin sabiq əməkdaşı Çingiz Quliyev

**«2012-ci ilin yanvarında getdim «Zaminbank»a, dedim burda mənim adıma pul var. Dedilər ki, pul yoxdur. Pulu çıxarıblar». Nazirlər Kabinetinin sabiq əməkdaşı Çingiz Quliyevin dediyinə görə, o, 2010-cu il dekabrın 28-də «Zaminbank»la 266 saylı depozit müqaviləsi imzalayıb. Əvvəlcə hesaba 100 manat, 2011-ci il yanvarın 18-də isə daha 99 min manat pul qoyub. Dediyinə görə, bir ildən sonra həmin pulun üstünə 4 min manat faiz gəlməli imiş. Elə həmin faizi götürmək istəyəndə ona hesabında pul olmadığı bildirilib.**

Bundan sonra Çingiz Quliyev Baş Prokuror Yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin «161» saylı qaynar xətt mərkəzinə müraciət edib. Amma deyir müraciətindən 2 həftəyə yaxın vaxt ötsə də, onunla maraqlanan olmayıb: «Mənə prokurorluqdan zəng olunsa gedib aydınlaşdırarıq ki, mənim imzam olmadan pulumu bankdan kim götürə bilər? Burda yeganə bir variant var ki, tutaq ki, kimsə mənim imzamı çəkər. Amma mən pulun hesabdan çıxarılması haqqında heç bir sənədə imza atmamışam».

**«BİZƏ NƏ BELƏ MÜRACİƏT, NƏ DƏ BELƏ BİR ADAM ŞİKAYƏT EDİB»**

«Zaminbank»dan isə AzadlıqRadiosuna deyiblər ki, onlara bankdan pul götürülməsi problemi ilə bağlı elə bir müştəri müraciət etməyib. Bank əməkdaşının dediyinə görə, Çingiz Quliyev bazar ertəsi - fevralın 6-da bir daha banka, əməliyyat departamentinə müraciət etsin: «Sənədlərini təqdim etsin, biz də araşdıraq. Amma elə bir şey ola bilməz».

Mərkəzi Bankda da hesab edirlər ki, problemlə üzləşən vətəndaşın müraciətindən sonra bu məsələni araşdıra bilərlər.

**«BANK ÖHDƏLİK DAŞIYIR»**

İqtisadçı ekspert Samir Əliyev isə müştərinin özü olmadan onun bank hesabından pul çıxarılmasının mümkün olmadığını deyir. Onun sözlərinə görə, ola bilər ki, pul sahibi kiməsə etibarnamə verə bilər. Amma vətəndaş heç kimə etibarnamə vermədiyini və özü də bankdan pulu götürmədiyini deyirsə, bu zaman məsələ aydınlaşdırılmalıdır. Samir Əliyevə görə, əgər hesaba haker müdaxiləsi olubsa, belə müştərinin pulunu bank qaytarmalıdır: «Çünki hər hansı şəxs banka depozit yatırısa, bu zaman bankla həmin şəxs arasında müqavilə imzalanır və öhdəlik götürülür. Əgər haker hesabı silibsə, artıq bank məsuliyyət daşıyır. Əgər doğrudan da belə bir hal baş veribsə,




«Zaminbank»ın valyutadəyişmə məntəqəsi

bank həmin zərəri ödəməlidir».

Qaldı kı hesabdakı pulun saxta imza ilə kənar adam tərəfindən götürülməsinə, ekspert deyir ki, bankdan pul götürülməsi təkcə imza ilə həll olunmur. İmzanı saxtalaşdıran adam həm də həmin şəxsin şəxsiyyət vəsiqəsini təqdim etməlidir.

Samir Əliyev deyir ki, Rusiya və bəzi ölkələrdə bu kimi halların olması ilə bağlı məlumatlara tez-tez rast gəlinsə də, Azərbaycanda belə bir hadisənin baş verməsini birinci dəfədir eşidir.

**SAXTA İMZA İLƏ BANKDAN PUL ÇIXARILMA İLK HADİSƏ DEYİL**

Amma Baş Prokurorluğun 2011-ci il dekabrın 15-də yaydığı məlumatdan görünür ki, bu kimi hallar Azərbaycanda yeni deyil. Həmin məlumatda qeyd olunur ki, vətəndaş Oqtay Cəfərov «Royalbank» ASC-yə qoyduğu 30 min manatı geri ala bilmədiyi üçün Yasamal Rayon Məhkəməsinə müraciət edib. Məlumata görə, işə məhkəmədə baxılarkən məlum olub ki, 2009-2010-cu illər ərzində məxaric orderlərinə Oqtay Cəfərovun adından saxta imzalar atılaraq müxtəlif məbləğlərdə pul keçmiş vəzifəli şəxslər tərəfindən mənimsənilib. Fakta görə Baş Prokuror Yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsində mənimsəmə və vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, o cümlədən vəzifə saxtakarlığı maddələri ilə cinayət işi başlanılıb.

Bu ittihamlar məhkəmədə təsdiqlənsə, bank işçilərini 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə ilə cəzası gözləyir. Amma hələ ki, bank bu ittihamlarla bağlı hər hansı mövqe bildirməyib.

**«MƏN 100 MİNİ SAHİBKARLIQ FƏALİYYƏTİ İLƏ QAZANMIŞAM»**

Baş Prokurorluqdan Çingiz Quliyevin Korrupsiyaya qarşı Mübarizə İdarəsinə etdiyi müraciətə heç bir münasibət öyrənmək mümkün olmadı. Sonda Çingiz Quliyevin «Zaminbank»a qoyduğu pulun mənbəyi ilə də maraqlandıq. Dediyinə görə, bu pulları sahibkarlıq fəaliyyətindən qazanıb. Sadəcə, həmin pulları evdə yox, daha etibarlı hesab etdiyi banka qoymağı qərara alıb.

***Maarif Çingizoğlu***

**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru



# M.Ə.Rəsulzadənin Bakıdan aldığı şifrəli məktubda nə yazılmışdı?

*M.Ə.Rəsulzadənin Ə.B.Topçubaşıya məktublarından sətirlər*




**Moskvada təzəcə çapdan çıxan «A.M. Topçubaşi i M.A. Rasulzade — perepiska 1923-1926» kitabından M.Ə. RƏSULZADƏNİN Ə.B.TOPÇUBAŞOVA (TOPŞUBAŞI) MƏKTUBLARINDAN SƏTİRLƏR:**

17 noyabr 1923-cü il: «... Bir ay əvvəl çekistlər təsadüfən «Müsavat» Partiyasının gizli mətbəəsini üzə çıxardılar. Həmin mətbəədə çap edilən çağırışlarda bildirilirdi ki, partiyanın buraxılması haqqında «bəyannamə» təhdid altında dərc olunduğundan heç bir məna kəsb etmir. Çekistlər saxta pul buraxanları axtararkən heç gözləmədikləri halda belə bir «müəssisə»yə tuş gəliblər. Bu münasibətlə yenə 200-dək adam, o cümlədən yoldaşlarımızdan 17 nəfər sadiq işçi həbs olunub. Həbs edilənlər arasında R.Vəkilov, Nərimanbəyov, K.Vəli, Məmmədzadə, Musayev və başqaları var. Mətbəə ilə əlaqəli olan iki nəfər qəhrəmanlıq göstərərək heç kəsi satmayıb...».

7 dekabr 1923-cü il: «... Yəqin Siz Bakıdakı yeni həbslər barədə məktubumu almısınız. Görünür, həbs edilənləri Rusiyaya yollayacaqlar. Yoldaşlarımızın taleyindən çox nigaranıq. Ancaq yerlərdə iş davam edir. Sizə 2 intibahnamə göndərirəm. Hələ ki, elə bir yeni ehtiyacımız yoxdur. Gürcüstana da bədbəxtlik üz verib: Xomeriki həbs olunub...».

20 aprel 1924-cü il: «... Bakıdakı həbslər barədə artıq Sizə xəbər vermişəm və «Yeni Qafqaz»dan işgəncə, aclıq və hətta qadınlarla da qəddar davranış Sizə tanışdır. Həbs olunmuş müsavatçıları, eynən Gürcüstanda menşeviklərlə davrandıqları kimi, formal baxımdan partiyanın ləğvinə məcbur etmək istəyirlər. Bu barədə xarici mətbuatda hay-küy qaldırmaq lazımdır, çünki bu yolla zor işlədənlərin niyyətlərini iflic etmək olar. Düzdür, bənzər xəbərlərlə avropalı ağaları kövrəltmək çox çətindir və onların kütləşmiş əsəblərini, yəqin ki, insanları diri-diri tonqalda yandırmaq kimi daha təsirli olaylar oyada bilər...».

23 iyul 1924-cü il: «... Vətəndə vəziyyət ağırdır: istər millətçiləri, istərsə təmayülçü kommunistləri hər yanda təqib edirlər. Uzun işgəncə, əzabdan və 3 dəfə açlıq aksiyasından sonra 11 adamdan ibarət müsavatçıları daha sonra Murmanska (orijinalda «Murman» yazılıb – S.İ.) aparmaq üçün Moskvaya sürgün ediblər.Təşkilat hər məhbusa yolxərci üçün 75 manat qızıl pul verib. Çeka bu pulların üzərinə həbs qoysa da, uzun çək-çevirdən sonra 30% vergi məbləğini çıxmaqla onları məhbuslara qaytarıb».

10 dekabr 1924-cü il: «... Bu günlərdə bakılı yoldaşlardan məktub aldım. ... Şifrəli məktubdur. Müsavatçıların bir hissəsini Yaroslavla, bir qismini isə Solovetsk monastrına sürgün ediblər. 11 nəfər olublar. Onlar vağzala aparılarkən milli bayraq qaldıraraq himn oxuyublar. Sürgün edilənlər arasında müəllimlər, tələbələr, mətbəə yığıçıları və fəhlələr var. Əli Yusifzadə artıq buraxılıb.

Həbs və sürgünlərə baxmayaraq, təşkilat əvvəlki kimi fəaliyyət göstərir. Böyük maddi ehtiyacları var. Güllələnmiş, sürgün edilmiş və mühacirətə getmiş adamların ailələri yoldaşların himayəsindədir. Bu məqsədlə hər ay 1000 rubl xərclənir...».

***Sevda İsmayıllı***

# Türkiyə Peyğəmbərin 3 telini Çeçenistana bağışladı

*Ramzan Kadırov müqəddəs hədiyyəni göz yaşları ilə qəbul edib*



Bu müqəddəs saç tellərini Ərdoğan Kadırova bağışlayıb

**Türkiyənin baş naziri Rəcəb Tayyip Ərdoğan Məhəmməd Peyğəmbərin üç saç telini Çeçenistana bağışlayıb. Bu haqda Rusiyanın RİA Novosti agentliyi məlumat yayıb.**

Xəbərə görə, bu səhər müsəlmanlar üçün qiymətsiz sayılan bu hədiyyə xüsusi reys ilə İstanbuldan Qroznıya çatdırılıb. Təyyarəni Çeçenistan prezidenti Ramzan Kadırovun başçılığı ilə 10 mindən çox insan qarşılayıb. Hədiyyəni qəbul edərkən Kadırov göz yaşlarını saxlaya bilməyib.

Sonradan müqəddəs əşyanın Qroznıya gətirilməsi ilə əlaqədar paytaxtın mərkəzi məscidində dini ayin yerinə yetirilib. Qarşılanma, həmçinin dini mərasim Qroznı peyk kanalı ilə birbaşa yayımlanıb.

Bu, bir həftə ərzində Çeçenistana gətirilən Peyğəmbərin ikinci saç telidir. İndiyə qədər eksponat məşhur "Topqapı" muzeyində saxlanılırdı. Türkiyədəki çeçen diasporunun xahişi ilə qiymətli xatirə Peyğəmbərin mövlud günü ərəfəsində Qroznıya bağışlanıb. Bundan əvvəl - yanvarın 26-da Özbəkistandan da Peyğəmbərə məxsus olduğu bildirilən saç Çeçenistana göndərilmişdi.

2011-ci ilin sentyabrında isə Məhəm-



Ramzan Kadırov göz yaşlarını saxlaya bilməyib

məd Peyğəmbərə aid olduğu sayılan digər təbərrük əşyalar Kadırova çatdırılmışdı. Həmin vaxt Londondan Məhəmmədin istifadə etdiyi qab və onun qəbrinin üstünə salınan iki xalça hədiyyə olunmuşdu.

# «NİDA» məşhur hotellərə qarşı kampaniyaya başlayıb



Ziyalılar Forumu, 1 fevral 2012

*«Nida» Vətəndaş Hərəkatı Bakıdakı böyük hotel şəbəkələrinin bir qisminə qarşı kampaniyaya başlayıb. «Nida» iddia edir ki, son vaxtlar Azərbaycan hakimiyyəti müxalifəti, müstəqil insanları, təşkilatları sıxışdırmaq üçün yeni metoddan istifadə edir:* «Hakimiyyətin sifarişi ilə Bakıdakı müxtəlif hotellər əvvəldən razılaşma olmasına baxmayaraq, Müsavat Partiyasının yubiley tədbiri, Ziyalılar Forumunun və bəzi müstəqil təşkilatların tədbirlərinə yer verməkdən son anda imtina edib. Təəssüflər olsun ki, ABŞ-ın «Ambassador Group», «Hyatt Hotels Corporation» və «Hilton Worlwide» kimi dünyada ən böyük və məşhur şəbəkələrin Azərbaycandakı hotelləri də hakimiyyətin demokratiya və ədalət uğrunda mübarizə aparan insanların hüquqlarını bu cür kobud şəkildə pozmasına kömək edirlər. Biz bu imtinaların əsl səbəblərini açıqlayan məktubun (ingiliscə) həmin hotel şəbəkələrinin mərkəzi ofisinin e-mail adresinə göndərilməsi üçün «Facebook» və digər sosial şəbəkələrdə geniş təbliğat kampaniyasına start vermişik».

Bakıdakı hotellər adətən müxalifət və müstəqil qurumların tədbirlərinə yer verməkdən imtina etməsini texniki problemlərlə izah edirlər.

# Yaşı 65-i keçən aktyorlarla yenidən müqavilə imzalandı

*"Mən arzu edərdim ki, Azərbaycanın əsas teatrından yalnız xoş sədalar eşidəsiniz". Bu sözləri APA-ya Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyoru Rafiq Əzimov deyib. Teatrda yalnız yaradıcılıq söhbətləri, gözəl tamaşalardan danışılmasını istədiyini deyən xalq artisti onlarla birillik müqavilə imzalandığını bildirib.*

Fevralın 1-də Akademik Milli Dram Teatrının direktoru İsrafil İsrafilov yaşı 65-dən yuxarı olan xalq artistləri ilə müqavilə bağlamaq qərarına gəlib.

Ötən ilin sonunda təqaüdə göndəriləcəyi deyilən 4 xalq artisti – Rafiq Əzimov, Hacı İsmayılov, Ramiz Məlik və Rəfael Dadaşovla növbəti il üçün müqavilə imzalanıb.

Rəfael Dadaşov APA-ya açıqlamasında artıq bütün problemlərin arxada qaldığını bildirib. Xəbərdə teatr kollektivinin digər üzvləri ilə də müqavilə imzalanması prosesinin davam etdiriləcəyi vurğulanıb. Müqavilənin ləngiməsi səbəbi kimi hava şəraitinin uyğunsuzluğu göstərilib.

# Son 110 ildə belə soyuq olmayıb

Fevralın 2-də Bakıda son 110 ildə ən aşağı temperatur qeydə alınıb. Bu barədə APA-ya Milli Hidrometeoroloji Proqnozlar Bürosunun baş hidroloqu Asif Verdiyev bildirib. Fevralın 1-i axşamdan başlayan şimal-qərb küləyi fevralın 2-də gün ərzində davam edib. Küləyin maksimal sürəti Bakıda və Abşeron yarımadasında arabir saniyədə 28-33 metrə çatıb. Havanın minimal temperaturu Bakıda və Abşeron yarımadasında – 5.5 dərəcə şaxta təşkil edib. Bu, son 110 ildə ən rekord göstəricidir.

Havanın minimal temperaturu Aran rayonlarında 0-3, Naxçıvan Muxtar Respublikasında 6-11, dağlıq rayonlarda isə 9-12 dərəcə şaxta təşkil edib. Ən maksimal qar örtüyü Şəki rayonunun Sarıbaş ərazisində (68 sm) qeydə alınıb.

**BAKIDA YENİ ÇOVĞUN GÖZLƏNİR**

Fevralın 6-da gündüz saatlarında temperatur müsbət 2 dərəcəyə qədər artsa da, fevralın 7-dən yenidən havanın kəskin pisləşəcəyi proqnozlaşdırılır. Qarlı və şaxtalı hava şəraiti çovğunla müşahidə olunacaq.



Vasif Mövsümov

# Məmurdan antikorrupsiya fəalına mesaj: "OTUR YERİNDƏ İŞLƏ!"

*Şəmkir Rayon İcra Hakimiyyəti Korrupsiyaya Qarşı Mübarizə Fondunun yerli ofisinin bağlanmasını tələb edir. Bunu AzadlıqRadiosuna Fondun icraçı direktoru Vasif Mövsümov deyib. Onun sözlərinə görə, fevralın 2-də şəhər icra hakimiyyətinin nümayəndəsi, polis və prokurorluq işçiləri yerli ofisə gələrək onun fəaliyyətinin dayandırılmasını tələb ediblər: "Onlar ofisin girişindən göstəricini çıxarmağı tələb ediblər. Bildiriblər ki, ofis burda icazəsiz fəaliyyət göstərir. Onlar ofisin nə vaxtdan fəaliyyət göstərdiyini soruşublar. Halbuki bu ofis 7 ay əvvəl - 2011-ci ilin iyulunda rayon icra hakimiyyətinin, polis və prokurorluğun nümayəndələrinin iştirakı ilə açılıb".*

V.Mövsümov deyir ki, son vaxtlar onların apardıqları sorğularda vətəndaşlar, ayrı-ayrı sahibkarlar daha çox icra hakimiyyətlərinin müdaxilələrindən narazılıqlarını ifadə ediblər. O, hesab edir ki, ola bilsin elə onlara qarşı təzyiqlər də bununla bağlıdır. Onun sözlərinə görə, Şəmkirdə üzləşdikləri ofis problemi ilə bağlı Korrupsiyaya Qarşı Mübarizə üzrə Dövlət Komissiyasına artıq müraciət ediblər. Prezident Administrasiyasına, Baş Prokurorluğa da müraciət hazırlayırlar.

Özünü Şəmkir Rayon İcra Hakimiyyəti başçısının birinci müavini kimi təqdim edən isə telefon zəngimizə cavabında fondla bağlı problem olmadığını dedi: "Fonda deyilib otur yerində, fəaliyyət göstər. Bağlanmır, elə söhbət də yoxdur".

***Maarif Çingizoğlu***

# Vətən xeyrinə uğursuz arqument axtarışı...


Niyazi Mehdi

**«BURDAN» GETMƏK İSTƏYƏNLƏR...**

Bu günlərdə özlərini pis-yaxşı dolandıran adamların bir məclisində «burdan çıxıb getmək lazımdır» oxunun başına fırlanan söhbətində bulundum. Öncələr «burdan çıxıb getmək lazımdır» dedisinə qarşı çıxanda inamlı olurdum, özümü doğru bilirdim, hərçənd həmin öncələrdə (90-cı illərdə) dolanışıq baxımından Azərbaycan indikindən pis idi. Bəs nədən 2012-ci il «burdan çıxıb getmək lazımdır» dedisinə, adətimcə, qarşı çıxmaq istəyəndə, «dilim gəlmədi», «əlim qalxmadı»?

Gördüm ki, nə desəm, mənə qondarma, çürük, zəif görünəcək. Hələ onu demirəm ki, özümün də və bu ölkəni mənəvi subyekt kimi sevən neçə-neçə dostlarımın da başında bu dedinin fırlanması var: bəlkə vaxtında çıxıb getmək lazım idi?!

**TƏPƏRSİZ ARQUMENTLƏR SİLSİLƏSİNDƏN**

Cavabında nə deyəsən? Deyəsən ki, sənin peşə bacarıqlarınla orada işləyə bilməyəcəksən, olsa-olsa taksi sürəcəksən? Deyəcək, burada müəllim maaşındansa, orada süpürgəçi pulu on qat yaxşıdır.

Deyəcəksən, vətənimiz belə gözəldi-elə gözəldi, deyəcək, Almaniya, Fransa Liviya ha deyil ki, gözəl olmasın. Əvəzində vətənində maşının yoxdur ki, sən dediyin gözəlliyi görəsən, orada isə maşının da olacaq, başqa rahat transportlar da olacaq.

Deyəcəksən, Avropa insanı istiqanlı deyil, qayıdacaq ki, bu gün bizim camaatda istiqanlılığın ömrü bir-iki saatdır, salam-məleykim deyib qurtaranacan. Yoxsa kim kimin dərdini dərindən yaşayır?!

O biri yandan, gör, bizim vergidə, universitetlərdə, polisdə, tibdə nə qədər alçaq var (ya təbiətinə görə alçaqdırlar, ya da işləri alçaqlaşdırıb). Onların çoxu dostlarına «istiqanlıdırlar», ancaq işlərinə gələndə istiqanlı olsalar, atarlar bayıra (bu nə möcüzədir ki, Azərbaycanda sistem elə qurulub ki, vəzifəni yerinə yetirmək yaxşılıq etməklə çox çətin bir arada ola bilir?! Mərdimazarlıq pul gətirir, yaxşılıq yox!).

O gün Avronyusda gördüm ki, bir yunan da deyir: mən, artıq, burada yaşayammıram, çıxıb gedəcəm. Deməli, çıxıb getmək istəyi təkcə bizdə deyil ki, millətimizin pis xasiyyətinə çıxaq. Hətta yunanlar, ruslar, gürcülər kimi milli planda özlərindən razı olanlarda da çıxıb getmək istəyi var.

Bəs necə olsun?

**Yazının davamını AzadliqRadiosu.az saytında "Bloqlar" bölümündə oxuyun.**

***Niyazi Mehdi***

# Avropalı olmaq çətindirmi?

Mən bir sualı daim özüm – özümə verirəm: avropalı olmaq çətindirmi? Bəri başdan bilirəm ki, bu sual da oxucuların müəyyən kəsimində bir az qıcıq və mübahisə yaradacaq. Olsun. Qanunlarla işləməyi öyrənmək lazımdır. Qanunlarda hansısa proseduralar nəzərdə tutulubsa, bu o deməkdir ki, onları tətbiq etmək lazımdır. Müasir siyasi mədəniyyətin fundamenti kompromis və dialoqdur. Siyasət bu müstəvidən kənara çıxırsa, onda başqa qüvvə və vasitələr axtarışına çıxmaq mümkündür. Bəziləri düşünür ki, biz qüsurlar və nöqsanlar haqda danışanda və yazanda, özümüzə aşağılıq kompleksi, bir növ əskiklik hissi aşılayırıq. Lakin belə deyil. Biz nədən etiraf etməyək ki, bu Avropa bizdən çox-


Hüseynbala Səlimov

çox irəlidədir. Özü də təkcə texniki mədəniyyəti və elmi nailiyyətləri ilə deyil, həm də mədəni və siyasi dəyərləri, ictimai vərdişi və şüuru ilə bizdən xeyli öndədir.

**Yazının davamını AzadliqRadiosu.az saytında "Bloqlar" bölümündə oxuyun.**

***Hüseynbala Səlimov, müstəqil analitik***

*(Gülməcə)*

# MAŞININ QİYMƏTİ UCUZDUR, ZURNASI ÇOX BAHA

*(Manaf Süleymanovun ruhuna sayğılarla)*

Birinci neft bumunda ən dövlətli kənd Balaxanı sayılırmış. Kənddə elə bir həyət yoxmuş ki, orada neft quyusu olmasın. Günlərin birində həmin dövlətlilərdən biri gəlir Bakıya. Yaxşı yeyib-içir, keflənir, veyllənə-veyllənə gəlib çıxır Haşımov meydanına-Qoşa Qala qapısına. Görür ki, Hacı Zeynalabdinin maşını durub Qoşa Qala qapısının ağzında. Onu da deyək ki, Bakıya ilk maşını rəhmətlik Hacı gətizdirib, sonra Rotşildlər.

Hə, balaxanılı maşını görən kimi gəlir şoferin yanına, deyir məni apar filan kəndə. Şofer qayıdır ki, gücün çatmaz, çox bahadır. Balaxanılı hökmlə soruşur: "Axı, nə qədərdir?"

Şofer canını qurtarmaq üçün deyir: 25 manat. Oxucuların diqqətinə çatdırım ki, yüz il öncə bu pula bir əla fayton və iki köhlən at almaq olarmış. Balaxanılı dövlətli qayıdır ki, "verrəm 25 manatı, sür görüm!".

Şofer yola düşür. Əvvəlcə şəhərin mərkəzi küçələrindən keçirlər. Şofer hər dəfə adam görəndə fit verir, xəbərdarlıq edir. Bu da kişiyə ləzzət edir. Elə ki, şəhərdən çıxırlar, adam seyrəlir, fit səsi kəsilir. Kişi dilxor olub şoferdən soruşur:"Alə, nöş onun zurnasını çalmırsan?"

Şofer deyir ki, o zurnanı çox çalmaq olmaz, ona da pul verməlisən...

Kişi deyir: " Eybi yox, pul verrəm, sən çal".

Və yolboyu harda adam, xüsusən də xanım görür fiti çaldırır. Gəlib çıxırlar Balaxanıya. Hamı tökülüşür maşının qabağına. Birinci dəfə görürlər axı...

Hərif şoferdən soruşur: "Nə qədər verəcəyəm?"

Şofer qızıl-qırmızı deyir: "25 manat maşın haqqı, 35 manat da zurna üçün". Kişi məcbur olub pulu verir şoferə. Hər tərəfdən soruşurlar ki, hə, de görək maşınla necə gəldin, nə qədər xərcin çıxdı? Dövlətli deyir: "Maşının qiyməti ucuzdur, amma zurnası çox bahadır..."

# Alim Qasımov: "Ruslana təklif etdi, mən də dedim baş üstə"


Alim Qasımov

*Xalq artisti Alim Qasımov ukraynalı ifaçı, 2004-cü ildə "Eurovision" mahnı yarışmasının birincisi olan Ruslananı heyran edib. O hətta Alim Qasımova birgə layihə üzərində işləməyi də təklif edib. Bəs azərbaycanlı xanəndə bu haqda nə düşünür?*

*- Alim bəy, çılğın, emosional Ruslana – Ukrayna müğənnisi sizə bir duet oxumağı təklif edib. Bu işbirliyini necə qiymətləndirirsiz? Baş tutacaqmı?*

- Cavanlarla həmfikir olmağa, onlarla mahnı oxumağa mən pis baxmıram. Cavanlarla oxumuşam, hamısının müsbət enerjisini görmüşəm. Ruslana da söz xatirinə yox, sənət xatirinə deyirsə, mənə elə gəlir ki, çox maraqlı iş alınar. O təklif elədi, mən də dedim, baş üstə, eləyək. İndi nə olacaq, Allah bilir.

*- Nəsə planlaşdırdınızmı? Yoxsa söz olaraq qaldı...*

- O mənim telefon nömrələrimi götürdü və dedi ki, müraciət olunacaq.

*- Alim bəy, birinci dəfə deyil ki, belə təkliflər alırsız. Əvvəllər Stingdən, David Vandettadan təkliflər gəlmişdi...*

- Vandetta ilə mahnı yazdıq, məncə öz yerini də tapdı, pis alınmadı. İndi də müəyyən yerlərdə oxunur. Stinglə layihə hələ razılaşdırılmayıb. Mənim dostlarım da çalışırlar ki, Stinglə oxutsunlar məni. O da alınsa dünya şöhrətli bir şey olacaq. Stingi bütün dünya tanıyır, bizim muğam orda səslənsə əsrin gözəl layihələrindən olacaq.

*- Stinglə layihə artıq 10 ildir danışılır...*

- Mənə də BBC-dən bir oğlan demişdi. Əfsuslar olsun ki, məndən icazə alıb, ondan yox. Yəqin ki, o "zanitdi", işi-gücü...

***Şahnaz Bəylərqızı***

# Xristian dərnəyi "Fetih - 1453" filmini niyə boykot edir

*Faruk Aksoyun "Fetih - 1453" filmi fevralın 16-da dünya kinoteatrlarında göstərilməyə başlanacaq. Bu xəbəri Habertürk yayıb. Film həm də hər yerdə qəbul olunduğu kimi cümə günü deyil, cümə axşamı tamaşaçılarla görüşəcək. İlk seans göstərildiyi hər salonda saat 14-53-də (İstanbulun fəth tarixi - 1453) başlayacaq.*




Yayılan xəbərlərdə filmin Fatih Sultan Mehmetin İstanbul fəthini gerçək halı ilə əks etdirdiyi söylənilir. Deyilənə görə, film çəkilişlərinə hazırlıqdan tutmuş ssenarisinə, istifadə etdiyi texnologiyadan tutmuş dekor və kostyumlara qədər hər şeylə türk kinosunda bir ilkə imza atıb.

Ötən ay filmin təkcə fraqmentlərinin göstərilməsi Yunanıstanda etirazla qarşılandığından yazmışdıq. Yunanıstanda bundan sonra internetdə filmə qarşı boykot kampaniyası başladılıb.

Daha bir xəbər isə "Via Dolorosa" adlı Alman Xristian Dərnəyindən gəlib.

Dərnək İstanbulun fəthini anladan filmə xristianların baxmamasını istəyib.

Dərnək türklərin başqa dinə inananlara, insan haqlarına sayğı duymadığını iddia edib və boykot bildirişində bunları yazıb: "Fatih Sultan Mehmet İstanbulu alıb Ayasofiyanı cameyə çevirdikdən sonra 3 gün əsgərlərinin cinayət işləmələrinə, oğurluq etmələrinə və qadınlara təcavüzünə izin verib. Şəhər qan gölünə dönüb. Əslində Türkiyə üçün İstanbulun fəthi qutlanacaq bir gün olmamalıdır. Onların daha çox insan haqlarına, xristianlara verilən zərərlərdən dolayı utanmaları gərəkdir. Xristianlara bu filmə baxmamalarını tövsiyə edirik".

***Sevda İsmayıllı***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


Bəhram Bağırzadə: **"Səhnədə meymunluq etməklə ciddi yumor sənəti yaranmaz"**


**Elif Şafak Facebookdan bir sevgi hekayəti seçəcək**


**Barış Mançonun yoxluğundan 13 il keçdi...**


**Ərdoğan məşhur Amerika yazıçısını cahillikdə suçladı**


**Axı, burada da "tapş" var... (Vaqif İbrahimoğlunun Türkiyə gündəliyi)**

# İlham Əliyev: «Misirdə baş verənləri Azərbaycanda görməyəcəksiz»


Almaniya. 03 fevral 2012 (Reuters: Michael Dalder)

**MİSİRƏ BƏNZƏDİLƏN AZƏRBAYCAN**

*«Öz siyasi strukturuna görə, Mübarəkin devrilməsindən əvvəlki Misirə çox bənzəyən Azərbaycan kimi ölkəyə sərmayə yatıracaqsınızmı?»* Bu sual Münhen Təhlükəsizlik Konfransında səslənib. Prezident İlham Əliyevin də iştirak etdiyi «Enerji, ehtiyatlar və ətraf mühit: yeni təhlükəsizlik parametrləri» mövzusunda müzakirələrdə. Düzdür, sual birbaşa Azərbaycan prezidentinə hədəflənməyib. Amma o bu sualı cavablandırıb.

Müzakirələrdə Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Gunter Oettinger, Almaniya sığorta şirkəti «Allianz» SE-nin icraçı direktoru Michael Dickmann, «Greenpeace» Beynəlxalq təşkilatının icraçı direktoru Kumi Naidoo, Ukrayna prezidenti Viktor Yanukoviç də iştirak ediblər.

**«AZƏRBAYCAN KİMİ ÖLKƏYƏ...»**

Sualı isə Almaniya Xarici Siyasət və Təhlükəsizlik İnstitutunun direktoru Volker Perthes verib. Rəsmi xəbər agentliyi AzərTAc sualın müəllifini yazmayıb. Sualı isə agentlik saytında yerləşdirib: «Mən hiss edirəm ki, bizim sərmayə yatıra biləcəyimiz ölkələrdə siyasi vəziyyət və coğrafi dəhlizlə bağlı bir az çox danışırıq. Buna görə də mən sualımı birbaşa cənab Dickmanna ünvanlamaq istəyirəm. Çünki gələcək biznes risklərini müəyyən etmək və onun üzərində işləmək sizin səlahiyyətiniz çərçivəsindədir. Mən sizdən soruşmaq istərdim ki, bir il əvvəl Misir və Tunisdə baş verən iğtişaşların şahidi olduq. Sizin bu bir il ərzində enerji ilə zəngin ölkələrdə siyasi vəziyyətlə bağlı risklərin qiymətləndirilməsindəki fəaliyyətinizdə dəyişiklik varmı? Misir kimi ölkələrin təcrübəsindən misal gətirərək, - burada Azərbaycan prezidenti də iştirak edir, - öz siyasi strukturuna görə, Mübarəkin devrilməsindən əvvəlki Misirə çox bənzəyən Azərbaycan kimi ölkəyə sərmayə yatıracaqsınızmı?»

**İ.ƏLİYEV: «MİSİRDƏ BAŞ VERƏNLƏRİ AZƏRBAYCANDA GÖRMƏYƏCƏKSİZ»**

Sualı prezident İlham Əliyev də cavablandırıb. O, Azərbaycanda söz azadlığının, din azadlığının olmasından danışıb. Parlamentdə 10-dan artıq partiyanın təmsil olunduğunu da deyib: «Mən bayaqkı şəxsin savadından irəli gələrək bilmədiyi bir neçə göstəricini diqqətə çatdırmaq istəyirəm. Mənim 8 illik prezidentlik dövrümdə Azərbaycanda ümumi daxili məhsul 3 dəfə - 300 faiz artıb. Yoxsulluğun səviyyəsi 50 faizdən 7,6 faizə enib. İnflyasiyanın səviyyəsi 5,4 faiz təşkil edir. Son 8 il ərzində 1 milyondan artıq iş yeri yaradılıb. Xarici borc bizim ümumi daxili məhsulumuzun 6 faizini təşkil edir. İqtisadiyyatın şaxələnməsi sabitdir. Siyasi vəziyyət sabitdir. Bizim çoxpartiyalı sistemimiz var. Parlamentdə təmsil olunan 10-dan çox partiyamız var. Bizim azad mətbuatımız var. Bizdə söz azadlığı var. Bizdə din azadlığı var.

Nəhayət, bizdə azad internet var. Qeyd etmək istərdim ki, bizim regionda heç də bütün ölkələrdə azad internet yoxdur. Azərbaycanda internet istifadəçilərinin sayı 50 faizdən artıqdır və bu rəqəm artmaqdadır».

İlham Əliyev fikrini belə yekunlaşdırıb: «Azərbaycanda müasir, sabit cəmiyyət vardır. Kimsə Azərbaycanda Misirdə baş verən hadisələr kimi nəsə görmək istəyirsə, sizi əmin edirəm ki, nəyisə arzu edib-etməməyinizdən asılı olmayaraq bunu görməyəcəksiniz».

***Şahnaz Bəylərqızı***

# Prezident oğlu FİFA komitəsinin üzvü oldu

Tacikistan prezidenti Emomali Rahmonun 24 yaşlı oğlu Rustam Emomali FİFA-nın İnkişaf Komitəsinin üzvü təyin olunub. Bu qərarı Tacikistan Futbol Federasiyası verib. FİFA-nın 18 üzvdən ibarət İnkişaf Komitəsi kasıb ölkələrdə futbolun inkişafı ilə məşğuldur. Vaxtilə prezidentliyə varis hesab olunan Rustam Emomali peşəkar futbolçu olub. O. Tacikistanın "İstiqlal" komandasında oynayıb. O bu yaxınlarda Tacikistan Futbol Federasiyasının prezidenti təyin olunub. Rustam Emomali həm də Gömrük Komitəsində departament müdiridir.

# Çadranı çıxartmadı, həbs olundu

Fransada hicabsız gəzmək istəməyən bir müsəlman qadın barəsində həbs qərarı çıxarılıb. 32 yaşlı Hind Ahmas ilk dəfə ötən il aprelin 11-də polis tərəfindən saxlanılıb. Həmin vaxt ictimai yerdə başıbağlı gəzdiyinə görə, o, 120 avro dəyərində cərimələnib.

Ahmas cəriməni ödəməyəcəyini bəyan edib. Onda polis qadını "Fransız mülki qanunvericiliyinin öyrənilməsi üzrə 15 günlük kurs"a göndərmək istəyib. Amma xanım Ahmas bu kursa getməkdən də imtina edib. Bundan sonra onu məhkəməyə veriblər. Amma xanım məhkəməyə çadra ilə gəlmək istədiyindən, onu prosesə də buraxmayıblar. Onun iştirakı olmadan keçirilən proses nəticəsində hakimin hökmü ilə qadını 2 illik müddətinə həbs və 40 min avro civarında cərimə cəzasına məhkum ediblər.

# İngilislər dinsizlər üçün məbəd tikir

Britaniya paytaxtında ateistlər üçün xüsusi məbəd tikilməsi haqda təklifin müzakirəsi başlanılıb. Əgər layihə təsdiqlənsə, onda London mərkəzində 50 metr hündürlüyündə qara bina – ateizm qülləsi salınacaq. "The Guardian" yazır ki, bu təklif ingilis yazıçı və filosofu Allen de Botton tərəfindən irəli sürülüb.

# Azərbaycanda prezervativlərdən istifadə azalır



Azərbaycanda cinsi əlaqə zamanı prezervativdən istifadə edənlərin sayı azalır. Bu, Dövlət Statistika Komitəsinin məlumatıdır. Məlumata əsasən, azalma daha çox qadınlar arasında müşahidə olunur. Belə ki, ölkədə qorunma vasitəsi kimi prezervativdən istifadə edən qadınların sayı 2009-cu ildə 33.2 min nəfər olduğu halda, 2010-cu ildə bu rəqəm 19,9 min nəfərə enib.

Rəsmi məlumata əsasən, son illər Azərbaycanda qadınlar digər qorunma vasitələrindən də az istifadə etməyə başlayıblar:

(Rəsmi statistika)

| Kontrasepsiya vasitələrindən istifadə(cəmi, min nəfər) | 2000 | 2005 | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|---|---|
| Uşaqlıqdaxili spiralı olan qadınlar | 30,9 | 29,5 | 24,6 | 28,6 | 22,7 | 19,7 |
| Hormonal kontrasepsiyadan istifadə edən qadınlar | 53,9 | 33,8 | 15,9 | 18,2 | 18,4 | 17,2 |
| Baryer kontraseptivdən istifadə edən qadınlar (prezervativlər, diafraqmalar, uşaqlıq boynu kolpakları) | ---- | ---- | 20,4 | 23,3 | 33,2 | 19,9 |
| Kimyəvi kontrasepsiyadan istifadə edən qadınlar | ---- | ---- | ---- | ---- | ---- | 3,2 |
| Qadınların sterilizasiyası üzrə cərrahiyyə əməliyyatlarının sayı | 255 | 239 | 157 | 137 | 142 | 217 |

### BƏS DÜNYADA TENDENSİYA NECƏDİR?

Azərbaycandakı bu tendensiyanı dünyanın inkişaf etmiş ölkələrindəki vəziyyətlə müqayisə etmək üçün Qərb mətbuatında yazılanlara müraciət etdik. Diqqətimizi cəlb edən əsas fakt bu oldu ki, bir sıra xarici ölkələrdə xüsusi prezervativlərdən istifadənin genişlənməsi üçün təbliğat aparılır. "The New York Times" qəzeti yazır ki, ABŞ-da 1985-ci ildə aparılan sorğuya görə, qadınların 55 faizi prezervativdən istifadə edirdi. 2010-cu ildə aparılmış sorğuda bu rəqəm 72 faiz olub.

### İÇV ARTIR, ZÖHRƏVİ XƏSTƏLİKLƏR AZALIR

Bəllidir ki, qoruyucu vasitələr təkcə arzuolunmaz hamiləliyə qarşı deyil, həm də daha çox cinsi yolla yoluxan xəstəliklərə qarşı istifadə edilir.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə zöhrəvi xəstəliklərlə yoluxma səviyyəsi illər üzrə aşağıdakı kimi olub:

| Əhalinin cins və yaş qrupları üzrə zöhrəvi xəstəliklərlə xəstələnməsi (cəmi, nəfər) | 2007 | 2008 | 2009 | 2010 |
|---|---|---|---|---|
| Qeydiyyatda olan sifilislə xəstələnənlərin sayı | 838 | 581 | 728 | 770 |
| Qeydiyyatda olan süzənəklə xəstələnənlərin sayı | 632 | 290 | 292 | 224 |
| Qeydiyyatda olan insanın immunçatışmazlığı virusunun (İİÇV) törətdiyi xəstəliklə xəstələrin sayı | 1320 | 1744 | 2174 | 2621 |

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

**Vergi ödəmək savabdır!**

*Bəs cibə qoymaq necə? Yüklədi: Anonim*




Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## necə dinləməli...

24 saat

**Mobil telefonda canlı:** İndi 3G, GPRS və ya Wi Fi-la radiomuzu canlı dinləmək olur... Ətraflı: **AzadliqRadiosu.az**-da

# AzadliqRadiosu Facebook-da




**facebook.com/azadliqradiosu**

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tblisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email:fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz